# Sənətə verilən yüksək qiymət

Azərbaycan xalqı maddi və mənəvi mədəniyyətə malikdir. Mədəniyyətimizin, incəsənətimizin öyrənilməsi, tədqiq və təbliğ edilməsi, əsl sənət ustalarının diqqətdən kənarda qalmaması bu gün çox zəruridir.

Mədəniyyət milli sərvətdir. Azərbaycanda mədəniyyətin bugünki inkişafı məhz ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidmətinin bəhrəsidir. "Elmimiz, mədəniyyətimiz, ədəbiyyatımız xalqımızı tanıdır, xalqımızı yaşadır" - deyən ulu öndəri haqlı olaraq "mədəniyyətin hamisi" adlandırırlar.

Heydər Əliyev xəzinəsindən ən böyük töhvə ədəbiyyat və mədəniyyət işçilərinin - yazıçıların, bəstəkarların, memarların, kino və teatr xadimlərinin payına düşüb desək yanılmarıq. Azərbaycan xalqının əsrlər boyu yaratdığı elm və mədəniyyət abidələrinə, ədəbiyyat və incəsənət sərvətlərinə olan məhəbbət onun öz xalqına, doğma torpağına olan sonsuz sevgisindən qaynaqlanır.

Heydər Əliyev müasir Azərbaycanın elmi-mədəni mühitinə nəinki yüksək qiymət vermiş, həm də bu mühitin sağlam əsaslarla daha da inkişafına qayğı göstərmişdir. O, neçə-neçə yazıçını, rəssamı, bəstəkarı, aktyoru yüksək mükafatlarla təltif etməsilə Azərbaycan mədəniyyətinin inkişafına xidmət etmişdir. Bu gün həmin ənənə liderimizin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə milli adın verilməsi haqqında 15 və 16 may 2006-cı il tarixili sərəncamı buna bir daha parlaq sübutdur. Bu fəxri adlarla təltif olunanlar sırasında Naxçıvan MR-nın mədəniyyət və incəsənət ustalarının da adları var.

Naxçıvan torpağı Azərbaycan tarixinin yaddaşına ululuq simvolu kimi daxil olmuşdur. Naxçıvan yaranışı günündən mədəniyyət, sənət və ədəbiyyat beşiyi olub və dünya mədəniyyətinə onlarla qüdrətli sənətkarlar bəxş edib. Əcəmi Əbubəkir, Bəhruz Kəngərli, Cəlil Məmmədquluzadə, Yusif Məmmədəliyev, Rza Təhmasib, Kazım Ziya... kimi ədiblər, memarlar, alimlər bu torpaqda dünyaya göz açmışlar.

Təbii ki, sənətə, sənətkara layiq olduğu qiyməti verəndə hər şey gözəl olur. Bu diqqəti, bu qayğını Naxçıvan sənətçiləri də hər an hiss edir. Onların işgüzar fəaliyyətləri, istedad və bacarıqları göz qabağındadır. Təsadüfi deyil ki, ümummilli liderimiz Heydər Əliyev 1999-cu ildə Naxçıvanda MR-nın yaradılmasının 75 illik yubileyi münasibətilə keçirilən təntənəli tədbirdə Naxçıvan sənətkarlarının istedadına, bacarığına yüksək qiymət verərək demişdir ki, Naxçıvanda mədəniyyət xeyli inkişaf edib, tərəqqi yoluna çıxıb. Bu torpağın istedadlı gəncləri çoxdur, onlar milli mədəniyyəti və milli ruhu gözəl qoruyurlar.

Bütün bunların nəticəsidir ki, Azərbaycan Respublikası Prezidentinin 15 may 2006-cı il tarixli sərəncamı ilə dövlət idarəçiliyi, elm və təhsil, idman, mədəniyyət və incəsənət sahəsində böyük xidmətləri olan bir qrup şəxslərə, o cümlədən Naxçıvanın istedadlı tarzəni Əkrəm Məmməd oğlu Məmmədova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir.

Əkrəm Məmmədov qədim Naxçıvan diyarının görkəmli sənətkarlarından biri, təkcə respublikamızda deyil, eləcə də onun hüdudlarından kənarda da yüksək ifaçılıq məharəti ilə tanınan istedadlı tarzən, gözəl pedaqoq, neçə-neçə bəstələr müəllifidir.

Özünəməxsus yaradıcılıq yolu keçən Əkrəm Məmmədov özündən əvvəlki klassiklərin və müasiri olan ustadların ifaçılıq üslubuna, ənənəsinə hörmətlə yanaşan, bununla belə öz yolu, öz dəsti-xətti olan tarzəndir. Onun çox incə hissi, emosional duyumu, qeyri-adi barmaqları və ifa tərzi var.

Əkrəm Məmmədov bir ifaçı kimi Naxçıvan MR-nın mədəni həyatında çox böyük işlər görmüşdür. O, hələ 16 yaşında ikən Naxçıvan Dövlət Musiqili Dram Teatrında Üzeyir Hacıbəyovun "Əsli və Kərəm" operasını əvvəldən axıra kimi tək müşayiət etmişdir. Eyni zamanda o, Hacı Xanməmmədovun 2№-li konsertinin, Cahangir Cahangirovun skripka konsertinin Azərbaycanda ilk ifaçısı olmuş və görkəmli tarzənlərimiz Hacı Xanməmmədov, Kamil Əhmədov, Əhməd Bakıxanov tərəfindən bəyənilmişdir.

Əkrəm Məmmədovun bəstəçilik fəaliyyətindən danışarkən, xor və solist üçün 3 hissəli "Bayram şənliyi" vokal-xoreoqrafik süitasının, mahnı və rəqs ansamblı üçün "Rəqs süitası"nın, "Naxçıvan süitası"nın, Hüseyn Cavidin sözlərinə "Röyaya qaldım" və Əliyar Yusiflinin "Gözüm yollarda qaldı" mahnıları-

nın, eləcə də Həmid Arzulunun "Əlincə qalası", İ.Coşğunun "Müşfiq haqqında dram" tamaşalarına yazdığı musiqilərin adlarını çəkə bilərik.

Əkrəm Məmmədov həm də gözəl pedaqoqdur. Naxçıvanda gənc tarzənlərin yetişməsində onun xidmətləri böyükdür.

Əkrəm müəllimin bir təşkilatçı kimi də kollektiv arasında layiqli nüfuzu vardır. O, Naxçıvanda keçirilən əksər dövlət tədbirlərinin bədii rəhbəri olmuşdur.

Əkrəm Məmmədovun yaradıcılığı Naxçıvanın musiqi mədəniyyətinə əvəzsiz bir töhfədir.

Azərbaycan Respublikası Prezidentinin 15 may 2006-cı il tarixli sərəncamı ilə incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verildiyi adlar sırasında Rəşid Rza oğlu Məmmədov və Çingiz Məmməd oğlu Axundovun da adları var.

Rəşid Rza oğlu Məmmədov Naxçıvan MR-da istedadlı dirijor, qayğıkeş müəllim, tanınmış mədəniyyət xadimi, gözəl ziyalı, ürəyəyatımlı mahnılar, süitalar müəllifi olan bəstəkar kimi tanınmışdır. O, bütün həyatını MR-nın mədəniyyətinin yüksəlməsinə, çiçəklənməsinə, tərəqqisinə həsr etmişdir.

Rəşid Məmmədov 1936-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. İlk musiqi təhsilini Naxçıvan şəhərindəki 1 saylı uşaq musiqi məktəbində tarzən Kamil Abdullayevdən almışdır. 1953-cü ildə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumuna daxil olan Rəşid Məmmədov Əhməd Bakıxanov, Adil Gəray, Ağabacı Rzayeva kimi görkəmli sənətkarlardan dərs alır. O, texnikumu bitirdikdən sonra Naxçıvana qayıdır və buraya gəlişi ilə musiqiçilər arasında gözəl bir ovqat yaradır, istedadlı musiqiçiləri öz ətrafına yığıb orkestr təşkil edir. Həm onları tanıdır, həm də özü tanınır.

Rəşid Məmmədovun yaradıcılığında mahnı janrı özünəməxsus yer tutur. Onun Kərim Quliyevin sözlərinə "Qız görüşə tələsir", "Ürək pıçıldayır", "Baxma oğlan", "Yağış yağır", Həmid Arzulunun sözlərinə "Nişanlı qızlar", Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Sənsən xilaskar", Hüseyn Razinin sözlərinə "Xan Araz" və s. kimi mahnılar qeyrətli insanların mərd, mübariz və mənəvi dəyərlərini aydınlığı ilə səciyyələndirir.

Rəşid Məmmədovun qaynar fəaliyyəti qədim Naxçıvan teatrıyla daha çox bağlıdır. O, onlarla klassik və çağdaş səhnə əsərlərinə musiqilər yazmışdır. Bunlardan H.Cavidin "Səyavuş", C.Cabbarlının "Nəsrəddin şah", "Od gəlini", Lore de Veqanın "Nə əldən qoyur, nə yardan doyur", Kəmalə Ağayevanın "İsmət"... və s. əsərlərin adlarını çəkə bilərik.

Rəşid Məmmədov eyni zamanda gözəl təşkilatçıdır. Şərur, Ordubad, Culfa rayonlarında uşaq musiqi məktəblərinin açılması, eləcə də Naxçıvan Musiqi Texnikumunun açılması Rəşid müəllimin adı ilə bağlıdır. Naxçıvandakı ilk musiqi məktəbinə 18 il fasiləsiz başçılıq etmiş, Naxçıvan Şəhər Mədəniyyət Şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Bir pedaqoq kimi isə onun əməyi danılmazdır.

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olan Rəşid Məmmədov bu gün də yorulmadan çalışır, musiqi xəzinəmizə yeni-yeni töhfələr bəxş edir.

Çingiz Axundov 1959-cu ildə Naxçıvan şəhərində anadan olmuşdur. Ailələrində musiqiyə olan böyük həvəs Çingizə də təsir etmiş, bu sənətə marağın yaranmasına səbəb olmuşdur.

1974-78-ci illərdə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda, 1978-83-cü illərdə isə Azərbaycan Dövlət Konservatoriyasında təhsil alır. 1982-ci ildə keçiriəln I Zaqafqaziya kamera musiqi festivalında iştirak edən Çingiz Axundov I dərəcəli diploma layiq görülür. Təhsil illərində o, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında və Azərbaycan Dövlət Filarmoniyasında çalışaraq öz ixtisasını daha da təkmilləşdirir. 1985-ci ildə doğma vətəni Naxçıvana qayıdan Çingiz Axundov Naxçıvan Dövlət Filarmoniyasında fəaliyyətə başlayır. Filarmoniyanın nəzdində fəaliyyət göstərən nəğməli kollektivlərdən biri kamera orkestridir. O, artıq uzun illərdir ki, bu orkestrə rəhbərlik edir. Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Qara Qarayevin, Ramiz Mirişlinin, V.A.Motsartın, İ.Haydının və digər şöhrətli bəstəkarların əsərləri orkestrin repertuarının özəyini təşkil edir.

MR-da keçirilən bütün dövlət tədbirlərində Çingiz Axundovun rəhbərlik etdiyi kamera orkestri geniş tamaşaçı kütləsinin dərin rəğbətini qazanmışdır.

Bir pedaqoq kimi də fəaliyyət göstərən Ç.Axundov bu gün həyatının və sənətinin ən gözəl çağlarını yaşayır. MR-da gənc musiqi kadrlarının yetişməsinə böyük diqqət yetirən istedadlı musiqiçi daha inamla çalışır ki, qədim Naxçıvan torpağının yetirmələri Azərbaycanın musiqisinin təbliğində fəal iştirak etsinlər. Onun musiqi sənətinin inkişafında xidmətləri və ictimai həyatda fəal iştirakı hökumətimiz tərəfindən yüksək qiymətləndirilərək, Azərbaycan Respublikası Prezidentinin mükafatı ilə təltif edilmişdir.

Biz onu bu münasibətlə təbrik edir, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Azərbaycan Respublikasının 16 may 2006-cı il



tarixli sərəncamı ilə Naxçıvan MR-dan olan bir qrup sənət adamları Azərbaycan Respublikası Prezidentinin fəxri adları ilə təltif olunmuşlar. Bu adlara layiq görülənlər haqqında qısa da olsa məlumat vermək istəyirəm.

Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülənlər sırasında istedadlı tarzən, gözəl pedaqoq, bacarıqlı təşkilatçı Elman Kamal oğlu Əliyevin də adı var. O, milli musiqimizə qayğı göstərən, hər zaman sənətə bağlı olan bir insandır. Elman Əliyev uzun müddət xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və dirijoru kimi fəaliyyət göstərmişdir. O, həm də gözəl təşkilatçıdır. Hal-hazırda Naxçıvan Dövlət Filarmoniyasının direktoru vəzifəsində çalışır. Bir pedaqoq kimi Elman müəllim həmişə yeni-yeni istedadların aşkara çıxarılmasına böyük səy göstərir. Biz Elman müəllimə tutduğu yolda yorulmadan çalışmağı, daim irəliyə doğru getməyi arzulayırıq.

Əzizağa Məmmədov Naxçıvan Dövlət Filarmoniyasının ən öncül solistlərindən biridir. O, məlahətli səsiylə, yüksək ifaçılıq mədəniyyətilə fərqlənən, Naxçıvan ifaçılıq məktəbində yeni səhifələr yazan sənətkardır. Onun oxuduğu bəstəkar mahnıları, xalq havaları şirinliyi, cazibəliyi ilə həmişə diqqətdə olub. Dahi Üzeyir Hacıbəyovun "Sənsiz" və "Sevgili canan" romansları Əzizağanın ifa təqdimində çox şirin səslənir. 25 illik sənət yolunda o, eyni zamanda Tofiq Quliyevin, Səid Rüstəmovun, Rauf Hacıyevin, Cahangir Cahangirovun, Nəriman Məmmədovun, Rəşid Məmmədovun mahnılarına yeni nəfəs, yeni təravət gətirib. Bu səsin sahibi doğma Azərbaycanı qarış-qarış gəzib, keçmiş Sovetlər İttifaqının bir çox respublikasında və eləcə də İsveçrədə, Rumıniyada, Almaniyada, İran İslam Respublikasında, Türkiyədə qastrol səfərlərində olub və harada olubsa Azərbaycan musiqisini geniş məkanda təbliğ və tərənnüm edib.

Bu gün Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülən müğənni kövrək və həzin nəğmələrilə inamla sabaha doğru gedir.

Kimya Babayeva Şərur rayonunun Muğançıq-Mehrab kəndində dünyaya göz açıb. Sənət yoluna məhz "Leyli" pilləsindən başlayan müğənninin səsi bu gün mötəbər sənət məclislərindən gəlir. Onun oxuduğu muğamlar, mahnılar və təsniflər, bəstəkar nəğmələri böyük məhəbbətlə alqışlanır. "Apardı sellər Saranı", "Kəklik", "Almanı atdım xarala", "Xatırla məni", "Heç küsməyin yeridirmi", "Anam yadıma düşdü" mahnıları, "Zabul-segah", "Cahargah" muğamı və s. Kimya Babayevanın məlahətli ifasında Polşada, Macarıstanda, Almaniyada, Moskvada, Türkiyədə... səslənib və ona şöhrət gətirib. Bu gün Naxçıvan MR-nın ən tanınmış müğənnilərindən biri sayılan Kimya Babayeva "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülərək, sənətin işıqlı yollarında qətiyyətli, inamlı addımlarını atır.

Məlumdur ki, teatr sənəti xalqımızın mənəvi sərvətinin əsas və ayrılmaz hissələrindən birini təşkil edir. Şərqin qocaman sənət ocaqlarından biri də Naxçıvan Dövlət Musiqili Dram Teatrıdır. Yarandığı gündən özünün sağlam və mənəvi məfkurəsiylə böyük diqqət çəkən bu teatr dünya klassiklərinin, habelə Azərbaycan dramaturqlarının zəngin teatr ənənələri zəminində boy atıb inkişaf etmişdir. Fəaliyyət göstərdiyi 120 ildən artıq bir dövr ərzində bir çox çətinliklərlə üzləşsə də, unudulmaz sənətkarların çiynində pərvəriş tapmış, yaşamış, fəaliyyət göstərmiş və sənət məbədinə çevrilmişdir. Ötən illər ərzində Naxçıvanda teatr sənəti genişlənmiş, repertuarı zənginləşmiş, yeni-yeni aktyor və rejissor nəsli yetişmişdir.

Təsadüfi deyil ki, bu gün fəxri adlara layiq görülənlər sırasında teatr xadimlərinin də adları var. Naxçıvanın bir neçə aktyoru Respublikanın teatr həyatında göstərdikləri xidmətlərinə görə dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək "Əməkdar artist" fəxri adlarına layiq görülüblər. Doğma teatrın şöhrətini yüksəltmək üçün ciddi səy göstərən Xəlil Ərrəhman oğlu Hüseynov və Rza Əli oğlu Xudiyev öz istedadları, bacarıqları sayəsində bu fəxri adları daşımağa layiqdirlər.

Biz bütün bu sənətçiləri yüksək fəxri adlarla təltif olunmaları münasibətilə səmimi qəlbdən təbrik edir, onlara cansağlığı, yeni-yeni sənət uğurları arzulayırıq.

Beləliklə, göstərilən bu qayğının, yaradılan şəraitin müqabilində sənət adamlarının yalnız bir məqsədi, bir amalı olmalıdır - milli mədəniyyətimizin inkişafına, tərəqqisinə xidmət etmək, zəngin musiqi tariximizi geniş şəkildə tanıtdırmaq, təbliğ və təlqin etmək. Biz bu gün yalnız bu amalla yaşamalıyıq.

Naxçıvanın mədəni mühiti bu gün ölkə prezidenti cənab İlham Əliyevin qayğısı və Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun təşəbbüskarlığı və təşkilatçılıq fəaliyyətinin işığında parlayır və həmişə parlayacaqdır.

**Lalə ƏLİYEVA,**
*sənətşünaslıq namizədi*